## “Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi”nin icra vəziyyəti







** Əsas icraçı qurumların performansı müəyyənləşdirilərkən, hər bir qurumun əsas icraçı olduğu tədbirlərdən icra edilmiş tədbirlər «1» bal, qismən icra edilmiş tədbirlər «0.5» bal, icra edilməmiş tədbirlər «0» bal ilə qiymətləndirilməklə əldə edilmiş toplam nəticə həmin qurumların əsas icraçı olduqları tədbirlərin ümumi sayına bölünmüşdür. Belə ki, əsas icraçı qurumların performansı qiymətləndirilərkən, məsul olduqları tədbirlərin «Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi»ndəki tədbirlərdə xüsusi çəkisi nəzərə alınmamışdır.*

*** Aidiyyəti qurumların məsul olduqları tədbirlərin sayı bu Strateji Yol Xəritəsinin təfsilatlı tədbirlər planı üzrə 2017-ci ildə həyata keçirilməsi nəzərdə tutulan tədbirləri özündə ehtiva edir.*

# “Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi”nin icra vəziyyəti

**68%** **2017-ci il üzrə icra göstəricisi**

<10% 10%–90% >90%

| Prioritetlərin icra vəziyyəti* | | Əsas icra göstəriciləri “outcome” *(2020-ci il üzrə)* | Təsir ** “impact” |
|---|---|---|---|
| Sektorda məhsuldarlığın və səmərəliliyin artırılması | 77% | ağır sənaye sahəsində əmək məhsuldarlığının 20 faizədək artırılması | real ÜDM-in 1 milyard 560 milyon artması |
| Enerjidən istifadədə optimal səmərəliliyə nail olunması | 80% | məhsul istehsalında zay məhsul istehsalının 17 faiz azaldılması | 7700 daimi yeni iş yerinin yaradılması |
| Aktivlərin və mövcud potensialın mərkəzi reyestrinin yaradılması | 50% | 2020-ci ilədək fəaliyyət göstərməyən ən azı 5 müəssisənin işə salınması və rəqabət qabiliyyəti zəif olan 10 müəssisənin istehsal yönümünün dəyişdirilməsinə nail olunması | |
| Regional tələbat baxımından dəyər zəncirlərində iştirakın təmin olunması | 50% | yeni dəmir filizi çıxarma və polad emalı zavodunun tikilməsi | |
| İdxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi | 67% | ağır sənaye üzrə yerli məhsulların keyfiyyətinin idxal edilən məhsulların keyfiyyətindən əsaslı şəkildə fərqlənmədiyi hallarda cari idxalın 20 faizinin yerli istehsal ilə əvəz edilməsi | |
| Dağ-mədən sənayesi və metallurgiya kompleksinin inkişaf etdirilməsi | 50% | kənd təsərrüfatı avadanlığının istehsalı üçün idxal olunan hissələrin 65 faiz azaldılması | |
| Xidmət sektorunun inkişaf etdirilməsi üzrə tələblərin qarşılanmasına dəstək verilməsi | 50% | qazma avadanlığının istehsalı üçün idxal olunan hissələrin ümumi bazardakı payının 45 faizə qədər azaldılması | |
| Alternativ maliyyələşmə mexanizmlərinin təşviqi və təcrübələrin ötürülməsi | 81% | | |
| Beynəlxalq standartlara və idarəçilik prosedurlarına uyğunlaşmanın təmin edilməsi | 63% | | |

** Prioritetlərin icra vəziyyəti bu Strateji Yol Xəritəsinin təfsilatlı tədbirlər planı üzrə 2017-ci ildə həyata keçirilməsi nəzərdə tutulan tədbirləri özündə ehtiva edir.*
*** Təsir indikatoru üzrə qiymətləndirmə 2020-ci ildə aparılacaqdır.*

# 2017-Cİ İL ÜZRƏ İLLİK MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ HESABATI

Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi*

**Görülmüş işlər barədə qısa məlumat**

2017-ci ildə “Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafı üzrə Strateji Yol Xəritəsi”ndə müəyyən edilmiş tədbirlərin 2017-ci il üzrə nəzərdə tutulmuş hissəsinin **44 faizinin** icrası tamamlanmış, **47 faizi** qismən icra edilmiş, **9 faizi** isə icra edilməmişdir.

Qənaətli istehsal metodlarının təhlili məqsədilə elm və sənaye nümayəndələrinin iştirakı ilə müzakirə, seminar və konfranslar keçirilmiş, beynəlxalq təcrübə öyrənilmişdir. Model müəssisənin yaradılması sahəsində beynəlxalq təcrübə araşdırılmış, beynəlxalq ekspertlərlə görüşlər keçirilmiş, model müəssisələrin ağır sənaye və maşınqayırma sektorlarında məhsuldarlığının artırılmasına xidmət edən nümunələr araşdırılmışdır. Aparılmış araşdırmalar əsasında “Qənaətli istehsal metodları”, “Qənaətli İstehsal Sisteminin alətləri”, “Qənaətli istehsal metodlarını tətbiq etməklə model müəssisənin yaradılması metodologiyası”, “KOS subyektlərinin faydalanması üçün Azərbaycanda model müəssisənin yaradılması metodologiyası” hazırlanmışdır. Bundan əlavə, metallurgiya, maşınqayırma və avtomobilqayırma sahələrində 3 müəssisə pilot model müəssisə kimi seçilmişdir.

Enerji balansının proqnozlaşdırılması və planlaşdırılması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində bir sıra işlər həyata keçirilmişdir. Sutkanın müxtəlif saatlarında elektrik enerjisindən istifadəyə dair region ölkələrinin təcrübəsi araşdırılaraq müvafiq statistik hesabat hazırlanmışdır.

Sənayedə istifadə olunmayan aktivlərin və təbii resursların mərkəzi reyestrinin yaradılması məqsədilə dövlət müəssisələrinin və təbii ehtiyatların (resursların) siyahısı tərtib edilmişdir.

Daxili istehsal imkanları və regional tələbat nəzərə alınmaqla ölkəmizdə həm istehsal potensialı, həm də regional idxal tələbatı yüksək olan məhsullar üzrə region ölkələrinin bazarları, əsas ticarət göstəricilərindən istifadə edilməklə araşdırılaraq bir sıra təhlillər aparılmış, region ölkələrinin bazarlarında idxal tələbatı yüksək olan məhsullar müəyyən edilmişdir. Bundan əlavə, müvafiq məhsulların ölkə daxilində istehsal potensialını və ixrac imkanlarını daha yaxşı müəyyən etmək üçün rəqabətqabiliyyətli məhsullar üzrə müəyyən araşdırmalar aparılmışdır.

İdxalı yerli istehsalla əvəzlənə bilən məhsulların müəyyənləşdirilməsi məqsədilə təhlillər aparılmış, ağır sənaye və maşınqayırma sənayesində idxalı əvəzlənə bilən məhsulların yekun siyahısı hazırlanmışdır.

Dağ-mədən sənayesində xidmətlərin təşviqi məqsədilə ölkədə dağ-mədən sektorunda fəaliyyət göstərən yerli müəssisələr və həmin müəssisələrin təklif etdikləri xidmətlər müəyyənləşdirilərək siyahılar hazırlanmışdır.

İnvestisiya məlumat bankının yaradılması məqsədilə www.enterpriseazerbaijan.com səhifəsi hazırlanmış və müxtəlif səpkili investisiya layihələri səhifəyə yüklənmişdir.

“Doing Business” və bir sıra digər beynəlxalq hesabatlarda Azərbaycan Respublikasının mövqeyinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra normativ hüquqi aktlarda dəyişikliklərlə bağlı layihələr hazırlanaraq təsdiq edilmişdir.

** İllik hesabatda qiymətləndirmə əlaqələndirici qurumun görülmüş işlərə dair təqdim etdiyi hesabat, aidiyyəti tərəflərlə müzakirələr, təqdim edilmiş təsdiqedici sənədlər və digər qiymətləndirmə vasitələri əsasında həyata keçirilmişdir. Əlaqələndirici qurum Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyidir.*

## **Prioritet 1.1.** Sektorda məhsuldarlığın və səmərəliliyin artırılması

**Görülmüş işlər barədə qısa məlumat**

Qənaətli istehsal metodlarının təhlili məqsədilə elm və sənaye nümayəndələrinin iştirakı ilə müzakirə, seminar və konfranslar keçirilmiş, beynəlxalq təcrübə öyrənilmişdir.
Model müəssisənin yaradılması sahəsində beynəlxalq təcrübə öyrənilmiş, beynəlxalq ekspertlərlə görüşlər keçirilmiş, model müəssisələrin ağır sənaye və maşınqayırma sektorlarında məhsuldarlığının artırılmasına xidmət edən nümunələr araşdırılmışdır. Aparılmış araşdırmalar əsasında model müəssisənin yaradılmasına dair ilkin metodika, metodologiya, seçim meyarlarını özündə əks etdirən “Qənaətli istehsal metodları”, “Qənaətli İstehsal Sisteminin alətləri”, “Qənaətli istehsal metodlarını tətbiq etməklə model müəssisənin yaradılması metodologiyası”, “KOS subyektlərinin faydalanması üçün Azərbaycanda model müəssisənin yaradılması metodologiyası” hazırlanmışdır. Bundan əlavə, metallurgiya, maşınqayırma və avtomobilqayırma sahələrində 3 müəssisə pilot model müəssisə kimi seçilmişdir.
Əmək bazarında ehtiyac duyulan sənaye, avtomobil və tekstil sahələri üzrə 10 ixtisas üçün, sahibkarlıq modulu daxil olmaqla kurikulumun, onların təlim materiallarının və “Peşə Tədris Mərkəzinin yaradılması” layihəsinə uyğun olaraq 8 ixtisas üzrə təhsil proqramının hazırlanmasına başlanmışdır.

| | | |
|---|---|---|
| **İcra edilmişdir** | **5 tədbirdən 2-si** | **40%** |
| **Qismən icra edilmişdir** | **5 tədbirdən 3-ü** | **60%** |
| **İcra edilməmişdir** | **-** | **0%** |

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə |
|---|---|---|---|---|
| **1.1.1. Qənaətli istehsal metodları üzrə təhlil aparılması** | **İqtisadiyyat Nazirliyi** | **Tarif Şurası, Vergilər Nazirliyi, Energetika Nazirliyi, Nəqliyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, "Azneftkimyamaş" ASC, APİK, "Daşkəsən Filizsaflaşdırma" ASC** | **2017–2020** | **☒ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir** |
| 1. Qənaətli istehsal metodları üzrə beynəlxalq təcrübənin araşdırılması | İqtisadiyyat Nazirliyi | Tarif Şurası, Vergilər Nazirliyi, Energetika Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, "Azneftkimyamaş" ASC, "Daşkəsən Filizsaflaşdırma" ASC | 2017 | ☒ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 2. Qənaətli istehsal metodları üzrə müvafiq xarici tərəfdaşlarla ikitərəfli işgüzar əlaqələrin qurulması | İqtisadiyyat Nazirliyi | Tarif Şurası, Vergilər Nazirliyi, Energetika Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, "Azneftkimyamaş" ASC, "Daşkəsən Filizsaflaşdırma" ASC | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 3. Aidiyyəti dövlət orqanlarının və pilot sənaye müəssisələrinin nümayəndələri ilə birgə səmərəli istehsal metodları üzrə müzakirə seminarlarının keçirilməsi | İqtisadiyyat Nazirliyi | Tarif Şurası, Vergilər Nazirliyi, Energetika Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, "Azneftkimyamaş" ASC, "Daşkəsən Filizsaflaşdırma" ASC | 2017–2020 (mütəmadi) | ☒ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 4. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla, səmərəli istehsal metodlarının tətbiqinin stimullaşdırılması məqsədilə mövcud normativ sənədlərin və qanunvericilik aktlarının təkmilləşdirilməsi üzrə təkliflər hazırlanması | İqtisadiyyat Nazirliyi | Tarif Şurası, Vergilər Nazirliyi, Energetika Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, "Azneftkimyamaş" ASC, "Daşkəsən Filizsaflaşdırma" ASC | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 5. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla, hazırlanmış normativ hüquqi aktların layihələrinin Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına münasibətdə | İqtisadiyyat Nazirliyi | Tarif Şurası, Vergilər Nazirliyi, Energetika Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, "Azneftkimyamaş" ASC, "Daşkəsən Filizsaflaşdırma" ASC | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |

| | | | | |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına münasibətdə, müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilməsi | | | | |
| 6. Qənaətli istehsal metodları ilə bağlı məlumatlandırma tədbirlərinin görülməsi (analitik və təşviq nəşrlərinin çap edilməsi) | İqtisadiyyat Nazirliyi | Tarif Şurası, Vergilər Nazirliyi, Energetika Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, "Azneftkimyamaş" ASC, "Daşkəsən Filizsaflaşdırma" ASC | 2017–2020 (mütəmadi) | ☒ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icrasına başlanılmamışdır |
| **1.1.2. Özəl investisiya əsasında model müəssisənin (zavodun) yaradılmasının dəstəklənməsi** | **İqtisadiyyat Nazirliyi** | **Əmlak Məsələləri Dövlət Komitəsi, Vergilər Nazirliyi** | **2017** | **☒ icra edilmişdir**<br>**☐ qismən icra edilmişdir**<br>**☐ icra edilməmişdir** |
| 1. Model müəssisənin yaradılması üzrə dünya təcrübəsinin araşdırılması | İqtisadiyyat Nazirliyi | Əmlak Məsələləri Dövlət Komitəsi, Vergilər Nazirliyi | 2017 | ☒ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 2. Model müəssisənin yaradılması üzrə metodologiyanın hazırlanması və bunun əsasında müvafiq pilot sahənin seçilməsi | İqtisadiyyat Nazirliyi | Əmlak Məsələləri Dövlət Komitəsi, Vergilər Nazirliyi | 2017 | ☒ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 3. Seçilmiş pilot sahədə model müəssisənin yaradılmasının dəstəklənməsi ("Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndəki 4.1-ci prioritetlə əlaqələndirməklə) | İqtisadiyyat Nazirliyi | Əmlak Məsələləri Dövlət Komitəsi, Vergilər Nazirliyi | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 4. Seçilmiş pilot sahədə model müəssisənin yaradılması istiqamətində xarici ekspertlər cəlb edilməklə tədbirlərin icrası istiqamətində işlərin aparılması | İqtisadiyyat Nazirliyi | Əmlak Məsələləri Dövlət Komitəsi, Vergilər Nazirliyi | 2018–2019 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 5. Ağır sənaye və maşınqayırma sektorunda fəaliyyət göstərən müəssisələrlə model müəssisənin qarşılıqlı əməkdaşlığının qurulması | İqtisadiyyat Nazirliyi | Əmlak Məsələləri Dövlət Komitəsi, Vergilər Nazirliyi | 2019–2020 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |

| | | | | |
|---|---|---|---|---|
| 6. Model müəssisə yaradıldıqdan və istismara verildikdən sonra davamlı monitorinqin aparılması | İqtisadiyyat Nazirliyi | Əmlak Məsələləri Dövlət Komitəsi, Vergilər Nazirliyi | 2020 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| **1.1.3.Sənaye müəssisələrinin kadr təminatının yaxşılaşdırılması** | **Təhsil Nazirliyi** | **İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | **2017–2020** | **☐ icra edilmişdir**<br>**☒ qismən icra edilmişdir**<br>**☐ icra edilməmişdir** |
| 1. Yerli bazarda ehtiyaclara uyğun təhsil proqramlarının (kurikulumlar), o cümlədən ixtisaslar üzrə peşə təhsili proqramlarının hazırlanması | Təhsil Nazirliyi | İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2017–2020 (mütəmadi) | ☐ icra edilmişdir<br>☒ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 2. Peşə təhsili müəssisələrinin və ixtisaslaşmış təlim mərkəzlərinin sənaye müəssisələrinin ehtiyaclarını təmin etmələri üçün maddi-texniki bazaların təkmilləşdirilməsi | Təhsil Nazirliyi | İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2017–2020 (mütəmadi) | ☐ icra edilmişdir<br>☒ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 3. Peşə təhsili müəssisələri və ixtisaslaşmış təlim mərkəzləri ilə bazar subyektləri arasında əlaqələndirmənin yaxşılaşdırılması istiqamətində tədbirlər görülməsi ("Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"ndəki 1.1-ci prioritetlə əlaqələndirməklə) | Təhsil Nazirliyi | İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2017–2020 (mütəmadi) | ☒ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 4. Mövcud iri sənaye və maşınqayırma müəssisələri ilə birlikdə tələb olunan ixtisaslar üzrə ikili peşə təhsili sisteminin ("dual study") mexanizminin işlənib hazırlanması | Təhsil Nazirliyi | İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2017–2018 | ☐ icra edilmişdir<br>☒ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| **1.1.4. Elmi tədqiqat təşkilatları ilə müəssisələr arasında əlaqələrin gücləndirilməsi** | **Azərbaycan Milli Elmlər Akademiyası** | **İqtisadiyyat Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi** | **2017–2020** | **☐ icra edilmişdir**<br>**☒ qismən icra edilmişdir**<br>**☐ icra edilməmişdir** |
| Müəssisələrdə elmi-texniki tədqiqatları, araşdırmaları və innovativ fəaliyyəti dəstəkləmək üçün milli innovasiya sisteminin yaradılması və milli tədqiqatların praktiki tətbiqi istiqamətində tədbirlər görülməsi ("Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndəki | Azərbaycan Milli Elmlər Akademiyası | İqtisadiyyat Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2017–2020 | ☐ icra edilmişdir<br>☒ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |

| | | | | |
|---|---|---|---|---|
| 5.1-ci və 5.2-ci prioritetlərlə və “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndəki 3.1-ci prioritetlə əlaqələndirməklə) | | | | |
| **1.1.5. Sahəvi assosiasiyaların yaradılmasının dəstəklənməsi və müntəzəm fəaliyyətinin təmin edilməsi** | **İqtisadiyyat Nazirliyi** | | **2017–2018** | **☐ icra edilmişdir**<br>**☒ qismən icra edilmişdir**<br>**☐ icra edilməmişdir** |
| 1. Assosiasiyaların yaradılması ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi | İqtisadiyyat Nazirliyi | | 2017 | ☐ icra edilmişdir<br>☒ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 2. Sahəvi assosiasiyaların yaradılmasının təşviqi üzrə tədbirlər görülməsi | İqtisadiyyat Nazirliyi | | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |

## **Prioritet 1.2.** Enerjidən istifadədə optimal səmərəliliyə nail olunması

**Görülmüş işlər barədə qısa məlumat**

Enerji balansının proqnozlaşdırılması və planlaşdırılması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində bir sıra işlər həyata keçirilmiş, enerji bazarında istehsalçı və istehlakçı müəssisələr arasında əlaqələndirmənin gücləndirilməsi məqsədilə enerji istehsalçısı və istehlakçısı olan müəssisələr arasında fəaliyyət üzrə əlaqələndirmə qrupu yaradılmışdır.

Strateji müəssisələrin siyahısının müəyyən edilməsi, elektrik enerjisi üzrə qeyri-pik saatlardan istifadənin və yük tələbatının optimal paylanmasının stimullaşdırılması məqsədilə müvafiq təkliflər hazırlanmışdır.

Sutkanın müxtəlif saatlarında elektrik enerjisindən istifadəyə dair region ölkələrinin təcrübəsi araşdırılaraq müvafiq statistik hesabat hazırlanmış, sənaye müəssisələrinin istehsal prosesində pik saatlardan qeyri-pik saatlara yönəldilməsinin təsirlərinin təhlil edilməsi məqsədilə aidiyyəti qurumlara müvafiq sorğular göndərilmiş, ilkin nəticələr müzakirə edilmişdir.

Sənaye müəssisələrində və ev təsərrüfatlarında enerji resurslarının effektiv istifadəsini təmin etmək üçün “Biznes üçün enerji effektivliyi və bərpa olunan enerji haqqında tövsiyə olunan Təcrübə Təlimatı” hazırlanmış, iri sənaye müəssisələrinə göndərilmişdir.

| | | |
|---|---|---|
| **İcra edilmişdir** | **5 tədbirdən 1-i** | **20%** |
| **Qismən icra edilmişdir** | **5 tədbirdən 4-ü** | **80%** |
| **İcra edilməmişdir** | **-** | **0%** |

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə |
|---|---|---|---|---|
| **1.2.1. Enerji balansının optimallaşdırılması, tələb və təklifin uzlaşdırılması** | **Tarif Şurası** | **Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Neft Şirkəti, "Azərenerji" ASC, "Azərişıq" ASC** | **2017–2020** | **☒ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir** |
| 1. Enerji balansının proqnozlaşdırılması və planlaşdırılması sahəsində beynəlxalq təcrübənin araşdırılması | Tarif Şurası | Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Neft Şirkəti, "Azərenerji" ASC, "Azərişıq" ASC, Dövlət Statistika Komitəsi, "Azəristiliktəchizat" ASC | 2017 | ☒ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 2. Enerji bazarında istehsalçı və istehlakçı müəssisələr arasında əlaqələndirmənin gücləndirilməsi, istehsal-istehlak potensiallarının əvvəlcədən birgə planlaşdırılması üçün enerji istehsalçısı və istehlakçısı olan müəssisələr arasında fəaliyyət üzrə əlaqələndirmə qrupunun yaradılması | Tarif Şurası | Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Neft Şirkəti, "Azərenerji" ASC, "Azərişıq" ASC, Dövlət Statistika Komitəsi, "Azəristiliktəchizat" ASC | 2017 | ☒ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 3. Mövcud tarif siyasətinin potensial inkişaf istiqamətlərinin, o cümlədən pik və qeyri-pik saatlar üzrə diferensial yanaşmaların tətbiqi imkanlarının müəyyənləşdirilməsi | Tarif Şurası | Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Neft Şirkəti, "Azərenerji" ASC, "Azərişıq" ASC, Dövlət Statistika Komitəsi, "Azəristiliktəchizat" ASC | 2017 | ☒ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icrasına başlanılmamışdır |
| 4. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla, qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanması | Tarif Şurası | Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Neft Şirkəti, "Azərenerji" ASC, "Azərişıq" ASC, Dövlət Statistika Komitəsi, "Azəristiliktəchizat" ASC | 2017 | ☒ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 5. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla, hazırlanmış normativ hüquqi aktların layihələrinin Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına münasibətdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına münasibətdə, müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər | Tarif Şurası | Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Neft Şirkəti, "Azərenerji" ASC, "Azərişıq" ASC, Dövlət Statistika Komitəsi, "Azəristiliktəchizat" ASC | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |

| | | | | |
|---|---|---|---|---|
| Kabinetinə və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilməsi | | | | |
| 6. Yanacaq-enerji balansının göstəriciləri əsasında tələb və təklifin uzlaşdırılması ilə bağlı tədbirlərin müəyyənləşdirilməsi | Tarif Şurası | Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Neft Şirkəti, “Azərenerji” ASC, “Azərişıq” ASC, Dövlət Statistika Komitəsi, “Azəristiliktəchizat” ASC | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 7. Tələb və təklifin uzlaşdırılması ilə bağlı müəyyənləşdirilmiş tədbirlərin həyata keçirilməsi | Tarif Şurası | Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Neft Şirkəti, “Azərenerji” ASC, “Azərişıq” ASC, Dövlət Statistika Komitəsi, “Azəristiliktəchizat” ASC | 2018–2020 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| **1.2.2. Qeyri-pik saatlardan istifadənin stimullaşdırılması** | **Tarif Şurası** | **Energetika Nazirliyi, “Azərenerji” ASC, İqtisadiyyat Nazirliyi** | **2017–2020** | **☐ icra edilmişdir**<br>**☒ qismən icra edilmişdir**<br>**☐ icra edilməmişdir** |
| 1. Beynəlxalq təcrübənin öyrənilməsi | Tarif Şurası | Energetika Nazirliyi, “Azərenerji” ASC, İqtisadiyyat Nazirliyi | 2017 | ☒ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 2. Sənaye müəssisələrində istehsal prosesinin pik saatlardan qeyri-pik saatlara yönəldilməsinin təsirlərinin təhlili | Tarif Şurası | Energetika Nazirliyi, “Azərenerji” ASC, İqtisadiyyat Nazirliyi | 2017–2018 | ☐ icra edilmişdir<br>☒ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 3. Araşdırma və təhlillərin nəticələri nəzərə alınmaqla, qeyri-pik saatlarından istifadənin stimullaşdırılması məqsədilə müvafiq tarif təkliflərinin hazırlanması | Tarif Şurası | Energetika Nazirliyi, “Azərenerji” ASC, İqtisadiyyat Nazirliyi | 2018–2019 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| **1.2.3. Strateji müəssisələr üçün güzəştli tariflərin müəyyənləşdirilməsi** | **Tarif Şurası** | **İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi** | **2017–2020** | **☐ icra edilmişdir**<br>**☒ qismən icra edilmişdir**<br>**☐ icra edilməmişdir** |
| 1. Strateji müəssisə anlayışına dair meyarların müəyyənləşdirilməsi və enerji tarifləri üzrə güzəştlərin tətbiqi məqsədilə strateji müəssisələrin siyahısının müəyyən edilməsinə dair təkliflər hazırlanması | Tarif Şurası | İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi | 2017 | ☐ icra edilmişdir<br>☒ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 2. Ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyət kəsb edən müəssisələrin siyahısının tərtib edilməsi | Tarif Şurası | İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 3. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya | Tarif Şurası | İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir |

| | | | | |
|---|---|---|---|---|
| Qanununun tələbləri nəzərə alınmaqla, strateji müəssisələrə münasibətdə güzəştli tariflərin tətbiqi məqsədilə mövcud normativ sənədlərin və qanunvericilik aktlarının təkmilləşdirilməsi üzrə təkliflər hazırlanması | | | | ☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 4. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla, hazırlanmış normativ hüquqi aktların layihələrinin Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına münasibətdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına münasibətdə müvafiq olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilməsi | Tarif Şurası | İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi | 2018–2019 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 5. Strateji müəssisələr üzrə tariflərin müəyyənləşdirilməsinə dair qərar qəbul edilməsi | Tarif Şurası | İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi | 2018–2019 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| **1.2.4. Enerji istehlakçılarının enerjidən səmərəli istifadəyə yönləndirilməsi** | **Energetika Nazirliyi** | **İqtisadiyyat Nazirliyi, Tarif Şurası** | **2017–2020** | **☐ icra edilmişdir**<br>**☒ qismən icra edilmişdir**<br>**☐ icra edilməmişdir** |
| 1. İstehsal prosesində enerjidən səmərəli istifadəyə dair ən yaxşı beynəlxalq nümunələri əks etdirən çap məhsullarının hazırlanması | Energetika Nazirliyi | İqtisadiyyat Nazirliyi, Tarif Şurası | 2017–2020 (mütəmadi) | ☒ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 2. Sənaye müəssisələri arasında enerjiqənaətli istehsal metodlarının təbliğ edilməsi məqsədilə tədbirlər keçirilməsi (sektorlar üzrə mütəmadi görüşlər, təlimlər, çap məhsullarının paylanması və s. vasitəsilə) | Energetika Nazirliyi | İqtisadiyyat Nazirliyi, Tarif Şurası | 2017–2020 (mütəmadi) | ☐ icra edilmişdir<br>☒ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| **1.2.5. Ağır sənaye, xüsusilə metallurgiya müəssisələrinin enerji təminatının fərqli, aşağı tariflərlə təmin edilməsi** | **Tarif Şurası** | **İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi** | **2017–2020** | **☐ icra edilmişdir**<br>**☒ qismən icra edilmişdir**<br>**☐ icra edilməmişdir** |

| | | | | |
|---|---|---|---|---|
| 1. Ağır sənaye və metallurgiya müəssisələrinin enerji təminatının fərqli, aşağı tariflərlə təmin edilməsi məqsədilə meyarların və sahələrin müəyyənləşdirilməsi ilə bağlı təkliflər verilməsi (bu Strateji Yol Xəritəsinin 1.2.3-cü tədbiri ilə əlaqələndirilməklə) | Tarif Şurası | İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi | 2017 | ☐ icra edilmişdir<br>☒ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 2. Müəyyən edilmiş sahə və meyarlara uyğun olan ağır sənaye və xüsusilə metallurgiya müəssisələrinin enerji təminatının fərqli, aşağı tariflərlə təmin edilməsi ilə bağlı təkliflər hazırlanması (bu Strateji Yol Xəritəsinin 1.2.3-cü tədbiri ilə əlaqələndirilməklə) | Tarif Şurası | İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi | 2018–2019 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 3. Ağır sənaye, xüsusilə metallurgiya müəssisələrinin enerji təminatının fərqli, aşağı tariflərlə təmin edilməsi üzrə təkliflərin tətbiqi məqsədilə mövcud normativ sənədlərin və qanunvericilik aktlarının təkmilləşdirilməsi üzrə təkliflər hazırlanması | Tarif Şurası | İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi | 2018–2019 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 4. Təkliflərin aidiyyəti üzrə təqdim edilməsi | Tarif Şurası | İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi | 2019–2020 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |

## **Prioritet 1.3.** Aktivlərin və mövcud potensialın mərkəzi reyestrinin yaradılması

**Görülmüş işlər barədə qısa məlumat**

Sənayedə istifadə olunmayan aktivlərin və təbii resursların mərkəzi reyestrinin yaradılması məqsədilə ağır və maşınqayırma sənaye sahəsi üzrə mövcud olan təbii ehtiyatlar və dövlət müəssisələri barədə aidiyyəti qurumlardan əldə edilmiş məlumatlar əsasında dövlət müəssisələrinin və təbii ehtiyatların (resursların) siyahısı tərtib edilmişdir.

| | | |
|---|---|---|
| **İcra edilmişdir** | **-** | **0%** |
| **Qismən icra edilmişdir** | **1 tədbirdən 1-i** | **100%** |
| **İcra edilməmişdir*** | **-** | **0%** |

** Bu Strateji Yol Xəritəsinin təfsilatlı tədbirlər planında bu prioritet üzrə müəyyən edilmiş 4 tədbirdən 3-ünün icra müddəti 2018–2020-ci illəri əhatə etdiyi üçün 2017-ci il üzrə qiymətləndirmədə həmin tədbirlərin icra vəziyyəti nəzərə alınmamışdır.*

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə |
|---|---|---|---|---|
| **1.3.1. Sənayedə istifadə olunmayan aktivlərin və təbii resursların mərkəzi reyestrinin yaradılması** | **Əmlak Məsələləri Dövlət Komitəsi** | **İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Vergilər Nazirliyi** | **2017** | **☐ icra edilmişdir<br>☒ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir** |
| 1. Sənayedə istifadə olunmayan aktivlərin və təbii resursların müəyyənləşdirilməsi (müxtəlif dövlət qurumlarının məlumat bazalarının təhlili və inteqrasiyası, obyektlərə yerində baxış, sorğu və müsahibələr, çarpaz (qarşılıqlı) yoxlamalar və s. vasitələrlə) | Əmlak Məsələləri Dövlət Komitəsi | İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Vergilər Nazirliyi | 2017 | ☐ icra edilmişdir<br>☒ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| 2. Sənayedə istifadə olunmayan aktivlərin və təbii resursların mərkəzi elektron reyestrinin yaradılması | Əmlak Məsələləri Dövlət Komitəsi | İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Vergilər Nazirliyi | 2017 | ☐ icra edilmişdir<br>☒ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |
| **1.3.2. Mərkəzi reyestrə daxil olan aktivlərin və təbii resursların qiymətləndirilməsi** | **Əmlak Məsələləri Dövlət Komitəsi** | **Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi** | **2018–2020** | **☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir** |
| 1. Rəqabət imkanları yüksək qiymətləndirilən aktivlərin müəyyənləşdirilməsi | Əmlak Məsələləri Dövlət Komitəsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 2. Müəyyən edilmiş aktivlər üzrə sanasiya tədbirlərinə tələb olunan investisiya həcmlərinin hesablanması | Əmlak Məsələləri Dövlət Komitəsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 3. Ölkənin təbii resurslar bazasının (neft-qaz sektoru istisna olmaqla) təhlil edilməsi, o cümlədən qara və əlvan metallurgiya, ağır maşınqayırma sahələri üçün istehsalın xammal tələbatının yerli xammal hesabına təminatı sahəsində mövcud olan, lakin istifadə edilməyən imkanların yenidən qiymətləndirilməsi | Əmlak Məsələləri Dövlət Komitəsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2018–2019 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 4. Aktivlərin və təbii resursların mərkəzi elektron reyestrinin yenilənməsi, həmçinin reyestrə daxil olan aktivlərin və təbii | Əmlak Məsələləri Dövlət Komitəsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2018–2020 (mütəmadi) | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir |

| | | | | |
|---|---|---|---|---|
| resursların qiymətləndirilməsinə dair təhlillərin yenilənməsi | | | | ☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| **1.3.3. Canlandırma fəaliyyətinin həyata keçirilməsi** | **Əmlak Məsələləri Dövlət Komitəsi** | **Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi** | **2018–2020** | **☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir** |
| 1. 1.3.2-ci tədbir çərçivəsində müəyyən edilmiş potensial rəqabət qabiliyyəti yüksək hesab edilən aktivlər (müəssisələr) üzrə texniki-iqtisadi və maliyyə əsaslandırmalarının aparılması, o cümlədən sektora və ümumi iqtisadiyyata təsirlərin hesablanması | Əmlak Məsələləri Dövlət Komitəsi | Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 2. Müəssisələrin yenidən işə salınması üçün tədbirlər planlarının hazırlanması (özəlləşdirmə, borcların restrukturizasiyası, yenidən təşkilolunma, strateji investorun cəlb edilməsi, dövlət-özəl tərəfdaşlığı, xarici kapitalla birgə müəssisələrin yaradılması, təcrübəli beynəlxalq operatorun idarəetməsinə verilməsi kimi vasitələrdən istifadə edilməklə) | Əmlak Məsələləri Dövlət Komitəsi | Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 3. Tədbirlər planlarının icrası | Əmlak Məsələləri Dövlət Komitəsi | Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2018–2020 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| **1.3.4. Aktivlərin təyinatının dəyişdirilməsi** | **Əmlak Məsələləri Dövlət Komitəsi** | **Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi** | **2018–2020** | **☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir** |
| 1. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla, aktivlərin təyinatının dəyişdirilməsi mexanizminin sadələşdirilməsi və daha çevik olması məqsədilə mövcud normativ sənədlərin və qanunvericilik aktlarının təkmilləşdirilməsi üzrə təkliflər hazırlanması | Əmlak Məsələləri Dövlət Komitəsi | Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |

| | | | | |
|---|---|---|---|---|
| 2. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla, hazırlanmış normativ hüquqi aktların layihələrinin Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına münasibətdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına münasibətdə, müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilməsi | Əmlak Məsələləri Dövlət Komitəsi | Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 3. Potensial rəqabət qabiliyyəti aşağı, tələb olunan investisiya həcmləri isə yüksək qiymətləndirilən aktivlərin (müəssisələrin) təyinatının dəyişdirilməsi ilə bağlı təhlillər aparılması | Əmlak Məsələləri Dövlət Komitəsi | Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2018 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |
| 4. Potensial rəqabət qabiliyyəti aşağı, tələb olunan investisiya həcmləri isə yüksək qiymətləndirilən aktivlərin (müəssisələrin) təyinatının dəyişdirilməsi ilə bağlı tədbirlər görülməsi | Əmlak Məsələləri Dövlət Komitəsi | Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2019–2020 | ☐ icra edilmişdir<br>☐ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir<br>☒ 2017-ci il üzrə qiymətləndirilmir |

## **Prioritet 2.1.** Regional tələbat baxımından dəyər zəncirlərində iştirakın təmin olunması

**<u>Görülmüş işlər barədə qısa məlumat</u>**

Daxili istehsal imkanları və regional tələbat nəzərə alınmaqla, ölkəmizdə həm istehsal potensialı, həm də regional idxal tələbatı yüksək olan məhsullar üzrə region ölkələrinin bazarları, əsas ticarət göstəricilərindən istifadə edilməklə araşdırılaraq bir sıra təhlillər aparılmış, region ölkələrinin bazarlarında idxal tələbatı yüksək olan məhsullar müəyyən edilmişdir. Bundan əlavə, müvafiq məhsulların ölkə daxilində istehsal potensialının və ixrac imkanlarının daha yaxşı müəyyən edilməsi məqsədilə rəqabətqabiliyyətli məhsullar üzrə müəyyən araşdırmalar aparılmışdır.

| | | |
|---|---|---|
| **İcra edilmişdir** | **-** | **0%** |
| **Qismən icra edilmişdir** | **2 tədbirdən 2-si** | **100%** |
| **İcra edilməmişdir** | **-** | **0%** |

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə |
|---|---|---|---|---|
| **2.1.1. Regional bazarlara ixrac perspektivi olan malların siyahısının hazırlanması və təhlillər aparılması** | **İqtisadiyyat Nazirliyi** | **Dövlət Gömrük Komitəsi, AZPROMO** | **2017** | **☐ icra edilmişdir<br>☒ qismən icra edilmişdir<br>☐ icra edilməmişdir** |
| 1. Ağır sənaye və maşınqayırma sahəsində regional dəyər zəncirində iştirakın təmin olunması məqsədilə daxili imkanların və regional bazarın təhlili | İqtisadiyyat Nazirliyi | Dövlət Gömrük Komitəsi, AZPROMO | 2017 | ☐ icra edilmişdir<br>☒ qismən icra edilmişdir<br>☐ icrasına başlanılmamışdır |
